**"Azərbaycan parlamenti Xocalı soyqırımına tam hüquqi qiymət verib"**

**Aydın Mirzəzadə: "Milli Məclis 1994-cü ildə Xocalı faciəsini soyqırım kimi tanıyıb"**

**XİN nümayəndəsi Elxan Poluxovun "soyqırımın dünya miqyasında tanıdılması üçün Milli Məclisin ciddi addım atmalı olduğu" barədə açıqlaması YAP-da narazılıqla qarşılanıb**

**"Prezident Heydər Əliyevin 1998-ci ildə imzaladığı müvafiq sərəncamda Xocalı faciəsi soyqırım kimi adlanıb"**

**"Milli Məclisdə 2002-ci ildə faciənin 10 illiyilə bağlı qəbul olunan qətnamədə 1992-ci ilin 26 fevralında baş verənlər soyqırım kimi tanınıb"**

Erməni vəhşiliyinin ən dəhşətli nümunlərindən olan Xocalı soyqırımının 18-ci ildönümü ərəfəsində bu məsələ yenidən geniş ictimai müzakirələrin mövzusuna çevrilib. On səkkiz il öncə baş verən bu hadisələr bir daha xatırlanır, faciənin səbəbləri təhlil edilir və onun təkrarlanmaması üçün atılmalı olan addımlar diqqətə çatdırılır. Gedən müzakirələrdə qırmızı xətlə seçilən bir tendensiya özünü daha qabarıq göstərir. Xocalı soyqırımının hələ də yetərli dərəcədə hüquqi qiymətini almadığını və dünyada lazım olan səviyyədə tanıdılmadığını önə çəkənlər bununla əlaqədar xüsusi qanunun qəbuluna çağırırlar. Xatırladaq ki, Xarici İşlər Nazirliyinin sözçüsü Elxan Poluxov da soyqırımın dünya miqyasında tanıdılması üçün Milli Məclisin ciddi addım atmalı olduğunu deyib. Amma mövzuya dair fikir bildirən bəzi şəxslər Xocalı soyqırımına hüquqi qiymət verilməməsi haqda iddialarla qətiyyən razılaşmırlar.

Hakim Yeni Azərbaycan Partiyasından (YAP) deputat Aydın Mirzəzadə Xocalı soyqırımıyla bağlı kifayət qədər sənəd qəbul olunduğunu əsas gətirərək, bu barədə xüsusi qanuna ehtiyac olmadığını deyir: "Nəzərə almaq lazımdır ki, qanun hansısa məsələnin, hansısa sahə üzrə fəaliyyətin tənzimlənməsi məqsədilə qəbul olunur. Hadisə üçün qanun qəbul edilmir. Mən başa düşürəm, Xocalı faciəsi hamımızın ağır dərdidir və o məsələnin öyrənilməsində, yadda qalmasında və dünyada tanıdılmasında maraqlıyıq. Amma yenə deyirəm, faciə haqqında qanun olmur. Çox istərdim ki, bu təklifi verənlər həmin məsələləri nəzərə alsınlar. Milli Məclisdə 1994-cü ildə Xocalı faciəsinin soyqırım kimi tanınması haqqında qərar qəbul olunub. 1998-ci ildə prezident Heydər Əliyevin müvafiq sərəncamında Xocalı faciəsi soyqırım kimi adlanıb. 2002-ci ildə Milli Məclisdə soyqırımın 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlər soyqırım kimi tanınıb. Mən hesab edirəm ki, buna Azərbaycan parlamenti Xocalı soyqırımına tam hüquqi qiymət verib".

**Rahid Cəfərli**

**Xalq Cəbhəsi.- 2010.- 19 fevral.- S.7.**